UOT: 334

*Elçin Fərhad oğlu OSMANOV*
*Bakı Biznes Universiteti, doktorant*
*10.30546/4.71.2023.109*

# KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFININ BƏZİ NƏZƏRİ-METODOLOJİ MƏSƏLƏLƏRİ

*Xülasə*

**Tədqiqatın məqsədi** - Kiçik və orta sahibkarlığın (KOS) inkişafının tarixi köklərinin araşdırılmasından, KOS-ın xarakterik xüsusiyyətlərini tədqiq etməkdən, sahibkarlığın inkişafının zəruri şərtlərini müəyyənləşdirməkdən ibarətdir.

**Tədqiqatın metodologiyası** - müqayisəli təhlil, ümumiləşdirmə, sentez metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** - KOS hazırda milli iqtisadiyyatın formalaşması və inkişafında və əmtəə bazarının formalaşmasında əsas hərəkətverici qüvvə hesab edilir. Bu prizmadan yanaşaraq KOS-un inkişafı üçün əlverişli şərait yaradılması, rəqabət mühitinin formalaşdırılması tədbirlərinin reallaşdırılması əhəmiyyətlidir.

**Tədqiqatın nəticələri** - KOS inkişafının nəzəri məsələlərini araşdırmaqla, onu ümumiləşdirmək, ölkəmizdə formalaşan təcrübəni tətbiq etmək üçün təkliflər hazırlamaqdır.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** - KOS-un davamlı inkişafı məqsədilə reallıqların nəzərə alınması və rəqabətqabiliyyətli inkişaf üçün prioritetlər müəyyən edilir. Bununla əlaqədar dünya və ölkəmizin təcrübəsi qiymətləndirilir, problemin səciyyəvi cəhətləri, inkişaf amilləri tədqiq edilir.

***Açar sözlər: kiçik və orta sahibkarlıq, milli iqtisadiyyat, inkişafı şərtləndirən amillər, nəzəri baxışlar, rəqabət qabiliyyəti.***

## *Giriş*

Məlum olduğu kimi, bazar iqtisadiyyatının, liberal təsərrüfatçılıq sisteminin fundamental əsaslarını iqtisadi azadlıqlar, azad rəqabət, təsərrüfat fəaliyyətinin tələb və təklif əsasında tənzimlənməsi və ən nəhayət xüsusi mülkiyyətə əsaslanan sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi təşkil edir. Ölçüsü və təsərrüfat fəaliyyətinin optimal həcmi baxımından dünya təcrübəsində kiçik, orta və iri sahibkarlıq formaları fərqləndirilir. Adı çəkilən sahibkarlıq formalarının özünəməxsus üstünlükləri və eyni zamanda çatışmazlıqları da mövcuddur. İri sahibkarlıq subyektlərinin investisiyaların cəlb edilməsi, mal göndərənlərdən kifayət qədər güzəşt əldə edə bilməsi, brend məhsullar istehsal etməklə dünya bazarına rəqabətqabiliyyətli məhsullar ixrac etmək baxımından üstünlükləri mövcud olsa da, böhranlı vəziyyətdə, eləcə də konyunktur tərəddüdləri zamanı dəyişən şəraitə adekvat reaksiya göstərmək iqtidarında olmur.

KOS qurumları isə cəmiyyətdə siyasi və iqtisadi baxımdan dayanıqlılığın təmin edilməsinə əlverişli şərait yaradır. Təsadüfi deyildir ki, inkişaf etmiş ölkələrin təcrübəsində KOS-un davamlı olaraq dəstəklənməsinə istiqamətlənmiş dövlət proqramları işlənib hazırlanır və həyata keçirilir. Bu baxımdan müasir qloballaşma şəraitində KOS-un inkişafı, onun milli iqtisadiyyatda rolunun qiymətləndirilməsi öz aktuallığını saxlamaqdadır.

**KOS-un inkişafının tarixi xüsusiyyəti.** KOS-un formalaşması erkən kapitalizmin yaranması ilə eyni tarixi dövrə təsadüf edir. Feodalizmin dağılması həmin dövr üçün iqtisadiyyatın bütün sahələrində məhdudiyyətlərin və fəaliyyət buxovlarının aradan qaldırılması ilə müşayiət olunmuşdur. Kapitalizmin formalaşması iqtidai azadlıqların bərqərar olması, xüsusilə kiçik sahibkarlıq xüsusi mülkiyyətə əsaslanan xırda təsərrüfatçılıq subyekti kimi formalaşmağa başladı. Doğrudur, XVI-XVII əsrlərdə KOS-un təkmil hüquqi, iqtisadi və institusional xarakter daşıyan fundamental əsaslarının formalaşdığından bəhs etmək absurd olardı. Onu da nəzərə almaq lazımdır ki, İngiltərə istisna olmaqla digər ölkələrdə proteksionist yönümlü iqtisadi münasibətlər bu və ya digər şəkildə

hakim mövqe tutduğundan azad rəqabətə əsaslanan və iqtisadi sərhədlərin liberal xarakter daşıdığı dünya iqtisadiyyatından bəhs etmək də mümkün deyildi.

Məlum həqiqətdir ki, dünya ölkələrində kapitalizmin inkişaf səviyyəsi də bərabər sürətlə irəliləmirdi. Kapitalizm XVI əsrdə formalaşsa da onun yayılma sürəti ləng xarakter daşıyırdı. 1500-1820-ci ilə qədər Böyük Britaniya və Hollandiyada adambaşına düşən iqtisadi artım sürəti 0,27-0,28% təşkil etsə də lakin bu göstərici digər Qərbi Avropa ölkələrinin müvafiq göstəricisini 2 dəfə qabaqlayırdı [1]. Odur ki, əksər ölkələrdə (Böyük Britaniya, Fransa, İspaniya, Portuqaliya, Hollandiya, Almaniya və s.) kapitalizmin inkişafı daha çox yeni ərazilərin zəbt edilməsi, müstəmləkələrin inkişafı fonunda irəlilədiyindən hər hansı mükəmməl bazar iqtisadiyyatı təcrübəsindən bəhs etmək mümkün deyildi.

KOS-un ibtidai əsasları xüsusilə ticarətdə sənətkarlıq sahəsində antik dövrlərdə də mövcud olmuşdur. XVII əsrdə kiçik sahibkarlıq subyektlərini sahibkar kimi isimləndirmirdilər. Bu şəxsləri dövlətlə müqavilə bağlayaraq məhsul istehsal edən və bazara çıxaran subyekt adlandırırdılar. Sahibkarlıq fəaliyyətinin öyrənilməsi ilk dəfə XVII əsrin sonu XVIII əsrin əvvəllərində irland-fransız əsilli iqtisadçı R.Kantilyon tərəfindən elmi ədəbiyyata gətirilmişdir [2].

KOS-un fəaliyyətinin inkişafı sahəsində mütərəqqi təmayüllər XIX əsrin sonu, XX əsrin sonlarından etibarən genişlənməyə başlamışdır. Belə ki, 1871-ci ildə Almaniyada azad ticarətin genişləndirilməsinə dövlət reyestri ləğv edildikdən sonra artıq kiçik sahibkarlıq qurumlarından hər hansı sertifikat tələb olunmurdu [3]. Beləliklə, artıq XIX əsrin sonu XX əsrin əvvəllərindən etibarən Rusiya istisna olmaqla, demək olar ki, dünyanın əksər kapitalist ölkələrində KOS bazar iqtisadiyyatının azad rəqabətə əsaslanan ən mühüm təsərrüfatçılıq formaları kimi fəaliyyət göstərirdi.

Beləliklə, KOS fəaliyyətinin formalaşmasının tarixi köklərini araşdıraraq belə qənaətə gəlmək olar ki, dünyada erkən kapitalizmin formalaşması XV-XVI əsrlərə təsadüf etsə də XIX əsrin sonlarınadək bazar iqtisadiyyatının əsasını təşkil edən azad ticarət anlayışı tam bərqərar olmamışdı. Doğrudur, Böyük Britaniyada bu sahədə köklü irəliləyişlər əldə olunmuşdu. Lakin bu təmayül dünyanın əksər ölkələrini əhatə etmirdi. Nəzərə alsaq ki, Rusiya İmperiyasında feodalizmin süqutu 1861-ci ilə təsadüf edirdi, onda sahibkarlığın inkişafı sahəsində dünyanın ayrı-ayrı ölkələrində müxtəlif lisenziya xarakterli buxovluğun mövcudluğu qənaətinə gəlmək mümkündür.

**KOS-un mahiyyəti və səciyyəvi cəhətləri.** KOS müasir bazar iqtisadiyyatının inkişafının əsas hərəkətverici qüvvəsi olub milli iqtisadiyyatın dayanıqlılığının təmin edilməsində önəmli rol oynayır. Müasir şəraitdə KOS qurumlarında istehsal edilən məhsul və xidmətlərin həcminin artırılması ölkənin makroiqtisadi göstəricilərinin səviyyəsinin yaxşılaşdırılmasında mühüm amil hesab edilir. Dünya təcrübəsindən çıxış etsək belə qənaətə gəlmək olar ki, kiçik və orta sahibkarlıq aşağı kapital tutumlu sahələrdə fəaliyyət göstərir və cəmiyyətin sosial həyatında əhəmiyyətli rol oynayır [4].

KOS-un inkişaf etdirilməsi hər bir ölkənin daxili bazarında bolluğun yaradılmasına, xidmət etdiyindən milli iqtisadiyyat çərçivəsində iqtisadi artımın təmin olunmasına şərait yaradır. KOS fəaliyyəti bazar iqtisadiyyatının mühüm tərkib hissəsini təşkil etməklə ilk növbədə azad rəqabət və iqtisadi azadlıqlar əsasında fəaliyyət göstərir. Odur ki, KOS-ın inkişaf etdirilməsi üçün başlıca ilkin şərt biznes mühitinin yaxşılaşdırılması hesab edilir.

KOS subyektləri müasir şəraitdə nəinki azad rəqabət, daha doğrusu, qlobal rəqabət mühitində fəaliyyət göstərirlər. KOS subyektlərinin qlobal rəqabət mühitində fəaliyyət göstərməsi qloballaşma prosesinin təbiətindən və səciyyəvi cəhətlərindən irəli gəlir. Odur ki, qlobal rəqabət mühitində KOS subyektlərinin geniş təkrar istehsal prosesinin səmərəliliyinin yüksəldilməsi, onların istehsal etdiyi məhsulun və göstərdiyi xidmətlərin rəqabət qabiliyyətinin yüksəldilməsinə nail olunmasıdır.

Məhsulun rəqabət qabiliyyəti istehsal edilən məhsulun istehlak və dəyər baxımından xarakterik xüsusiyyətlərinin məcmusu olub məhsulun konkret bazarlarda müəyyən zaman kəsiyində rəqabətə düşməsinə xidmət edir. Məhsulun rəqabət qabiliyyətinin ən mühüm tərəfləri məhsulun keyfiyyəti ilə xarakterizə olunur. Müasir şəraitdə məhsulun keyfiyyət səviyyəsinin yaxşılaşdırılması isə istehsal prosesinin texnoloji xüsusiyyətləri ilə sıx bağlıdır. Məhsulun keyfiyyətinin yüksəldilməsi üçün səciyyəvi cəhətlərdən biri də rəqabət üstünlüklərinin təmin edilməsilə bağlıdır [5. s.102-103].

Müəllifin fikirlərinə onu da əlavə etmək mümkündür ki, məhsulun rəqabət qabiliyyətinin yüksəldilməsi - istehsal edilən məhsulun keyfiyyətinin yüksəldilməsi istehsal prosesinin modernləşdirilməsi ilə sıx əlaqədardır. İstehsalın modernləşdirilməsi əmək məhsuldarlığının yüksəldilməsinə xidmət etməklə yanaşı daha çox istehsal edilən məhsulun texniki-istismar parametrlərinin yaxşılaşdırılmasında önəmli rola malikdir.

İ.e.d., professor, Əməkdar kənd təsərrüfatı işçisi İ.H.İbrahimovun fikrincə, istehsalın yeni texnika və mütərəqqi texnologiya, elmi-texniki tərəqqi, qabaqcıl təcrübənin tətbiqi, idarəetmənin işçilərin tərkibinin və s. təkmilləşdirilməsi və s. əsasında həyata keçirilən keyfiyyət dəyişiklikləri intensiv inkişafa zəmin yaradır. Həm də bu vaxt yeni istehsal güclərinin istifadəyə verilməsi, yeni müəssisə və istehsal sahələrinin yaradılması hesabına əmək məhsuldarlığının yüksəldilməsi təmin edilir. [6, s. 441-442] Müəllifin belə bir fikri ilə razılaşmaq mümkündür ki, istehsalın intensivləşdirilməsinə istiqamətlənmiş tədbirlər həm yeni texnologiyanın tətbiqini, həm də qabaqcıl təcrübənin tətbiqini nəzərdə tutur ki, bu da məhsulun istehlak xüsusiyyətlərinin və parametrlərinin yaxşılaşdırılmasına gətirib çıxarır. Beləliklə, intensivləşmə tədbirləri eyni zamanda iki vəzifənin-əmək məhsuldarlığının yaxşılaşdırılmasına və məhsulun keyfiyyətinin yüksəldiməsində xidmət edir. Adı çəkilən hər iki vəzifə KOS subyektlərinin rəqabət qabiliyyətinin yüksəldilməsində mühüm amil hesab edilir. Məlum olduğu kimi, rəqabət qabiliyyəti iki amili - qiymət və qeyri-qiymət amilini özündə ehtiva edir. Qiymət amili-məhsul istehsalına çəkilən xərclərin aşağı salınması hesabına qiymətlərin səviyyəsinin istehlakçıların sərfəli qiymətə məhsul istehlak etmələrinə, başqa sözlə qiymət əlçatanlığına xidmət edir. Qeyri-qiymət amili isə məhsulun keyfiyyətinin yüksəldilməsini nəzərdə tutur ki, bu da bazarda rəqabət aparan digər təsərrüfat subyektlərilə müqayisədə daha çox məhsul satışında əlverişli şərait yaradır.KOS səciyyəvi xüsusiyyətlərinə aşağıdakıları daxil etmək olar:

- KOS iqtisadiyyatın daha çox xidmət və ticarət sektorlarında, istehsal sahələri içərisində isə daha çox kənd təsərrüfatı, yeyinti və yüngül sənaye sahələrində yaradılır;
- KOS az kapital resursları tələb edir, iri biznes və sahibkarlıq fəaliyyəti ilə müqayisədə iri həcmli kapital resursları tələb etmir;
- Güzəştli şərtlərlə kreditləşdirmə ilə təmin edildiyi şəraitdə iqtisadiyyatın dayanıqlı inkişafının əsas hərəkətverici qüvvəsinə çevrilir;
- Kooperativ birliklərə çevrildiyi halda daxili bazarda bolluğun təmin edilməsinə əlverişli şərait yaradır. Daxili bazarda yerli istehsal hesabına özünütəminat səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır;
- KOS fəaliyyəti iqtisadiyyatın ixtisaslaşması və ictimai əmək bölgüsünün şərtlərinə daha çox adekvatlıq göstərir.

**KOS-un funksiyaları və formalaşmasının zəruri ilkin şərtləri.** Dünya təcrübəsindən çıxış etsək belə qənaətə gəlmək mümkündür ki, KOS fəaliyyətinin davamlı xarakter daşıması, KOS-un təşkilinin və idarə edilməsinin səmərəliliyinin yüksəldilməsi iqtisadi fəallığın yüksəldilməsinə əlverişli şərait yaradır. Problemə bu aspektdən yanaşdıqda KOS milli iqtisadiyyatda özünəməxsus funksiyalar yerinə yetirir ki, bu funksiyaları da aşağıdakı kimi təsnifləşdirmək mümkündür:

- KOS iqtisadi funksiyaları;
- KOS sosial funksiyaları;
- KOS resurs funksiyaları;
- KOS infrastruktur funksiyaları;
- KOS antiböhran funksiyaları.

KOS-ın iqtisadi funksiyaları bilavasitə bazar iqtisadiyyatının inkişafına xidmət edir, iqtisadiyyatın sahə və ərazi kəsimlərində iqtisadi fəallığın artırılmasında önəmli rola malikdir.

KOS-un inkişafı ölkədə ÜDM-in həcminin artmasında, dövlət büdcəsinin gəlirlərinin yüksəldilməsində önəmli pay sahibidir. KOS subyektlərindən toplanan vergilər vergi bazasının artırılmasına xidmət edir [8].

KOS-un sosial funksiyası əhali məşğulluğunun təmin edilməsində önəmli rol oynayır. Şərqi Avropa ölkələrinin təcrübəsində KOS subyektlərində daha çox aztəminatlı əhali kateqoriyaları çalışırlar

ki, bu da həmin əhali kateqoriyalarının gəlirlərinin artırılmasında önəmli amillərdən sayılır [9].

KOS fəaliyyətinin infrastruktur funksiyası KOS infrastruktur təminatının formalaşmasına əlverişli şərait yaradır. İnfrastrukturların inkişafını, o cümədən nəqliyyat xidmətlərinin və bazar infrastrukturlarının inkişafını bazar konyunkturları diktə edir. Bir sıra hallarda isə xüsusilə postsovet məkanı ölkələrində KOS-un infrastruktur təminatının formalaşması problemli xarakter daşıyır [11. s.170].

KOS iqtisadiyyatda antiböhran funksiyaları da yerinə yetirir. Böhranlı situasiyalarda daxili bazarın sabitləşdirilməsi, daxili bazarın yerli məhsullar hesabına təminatı, istehlak məhsullarının qiymətlərinin artırılmasının qarşısının alınması, ən başlıcası, cəmiyyətdə orta təbəqənin dağılmasının qarşısının alınmasında kiçik sahibkarlıq fəaliyyəti önəmli rol oynayır.

KOS-ın inkişafını şərtləndirən amillər işərisində iqtisadi şərtlər də mühüm rol oynayır.İqtisadi şərtlər həm dövlətin iqtisadi siyasəti çərçivəsində sitimullaşdırıcı xarakter daşımalı və həm də KOS subyektləri bazar konyunkturuna uyğun fəaliyyət göstərməlidir. Ümumiyyətlə, bütövlükdə KOS-un inkişafını şərtləndirən iqtisadi amillərə aşağıdakıları şamil etmək olar:

- məhsulların təklifi və onlara qarşı tələbat;
- alıcıların ala biləcəyi məhsulların növləri;
- alışa sərf edilə biləcək pul vəsaitlərinin həcmi;
- işçilərin əməkhaqqının səviyyəsinə, yəni onların mal almaq imkanlarına təsir göstərən iş yerlərinin, işçi qüvvəsinin çoxluğu, yaxud çatışmazlığı. Pul vəsaitlərinin mövcudluğu və əlverişliliyi, investisiya olunmuş kapitaldan əldə edilən gəlirin səviyyəsi, habelə işgüzar əməliyyatların maliyyələşdirilməsindən ötrü sahibkarlara kredit idarələri tərəfindən verilə biləcək lazımi borc vəsaitlərinin həcmi iqtisadi vəziyyətə əhəmiyyətli təsir göstərir [12, s.8].

**KOS inkişafının sosial şərtləri də mövcuddur.** KOS inkişafının sosial şərtləri cəmiyyət üzvlərinin alıcılıq qabiliyyətindən, əhalinin məşğulluq səviyyəsindən, minimum və orta aylıq əməkhaqqının səviyyəsindən, daxili bazarda istehlak məhsullarının qiymətlərinin, eləcə də inflyasiya səviyyəsindən asılıdır. Müşahidələr göstərir ki, KOS inkişafını şərtləndiriən amillər bir-biri ilə sıx əlaqədardır. Belə ki, KOS iqtisadi və sosial şərtləri arasında düz mütənasiblik mövcuddur. Beləliklə iqtisadi fəallığın səviyyəsinin yüksəlməsi təsərrüfat subyektlərinin, işçilərin gəlirlərinin artmasını, məşğulluğun səviyyəsinin yüksəlməsini özündə ehtiva edir. Bu baxımdan hüquqi şərtlər də son nəticədə iqtisadi və sosial şərtlərə əhəmiyyətli dərəcədə təsir göstərir. KOS subyektlərinin qeydiyyata alınması şərtlərinin yumşaldılması onların sayının artırılmasına səbəb olur ki, bu da məşğul olan əhalinin sayının artmasına, iqtisadi şəraitin əlverişli olması isə məşğul əhalinin gəlirinin artmasına geniş imkanlar açır.

Cəmiyyətdə ictimai-siyasi sabitliyin formalaşdırılması, böhranların olmaması KOS inkişafı üçün daha münbit şərait vəd edir. Beləliklə, KOS-un inkişafı üçün hüquqi, iqtisadi və sosial şərtlərdən öncə ictimai-siyasi sabitliyin yaradılması gəlir.

## *Nəticə*

Tədqiqatın nəticəsində belə qənaətə gəlmək olar ki, KOS-un inkişafı iqtisadi azadlıqların və əlverişli biznes mühitinin formalaşdırılmasından bilavasitə asılıdır. Liberal iqtisadi mühitin yaradılması KOS-un inkişafı üçün münbit şərait vəd edir. Azad rəqabət mühitinin yaradılması, investisiyaların cəlb edilməsi üçün zəruri şəraitin mövcudluğu, KOS qurumlarının iqtisadi resurslar bazarına çıxış imkanlarının təmin edilməsi ən vacib şərtlərdən hesab edilir. Bundan əlavə, KOS-un vergi yükünün azaldılması, onların güzəştli şərtlərlə kreditləşdirilməsinin dəstəklənməsi bu sahədə davamlı inkişafı səciyyələndirən ən mühüm amillərdəndir.

## ƏDƏBİYYAT

1. Ха - Дшун Чанг. Как устроена экономика. Москва-2022. 320 с.
2. F.A.Hayek, R.Cantillon, H.Higgs. essai sur la Nature du Commerce en General// The Economic Jurnal - 1932-03-T42, вын 165 -с 61,

3. D.R.Atschar. Entry regulation and entrepreneurship: a natural expreiment in gorman craftsmanship.//Emprical Economics - 2014 -11- Voe 47, İSS3 - p1067-1101.
4. Ru.wikipedia.org/wiki / Малое предпринимательетво
5. Малый бизнес. Под ред. В.Я. Горфинкеля. Москва-2009 33 6 с
6. İ.H.İbrahimov. Aqrar sahənin iqtisadiyyatı, Bakı - 2016, 655 s.
7. Е.Б.Феэорукэ. Малое предпринимательства в структуче экономики.// Транспортное дело России. 2010 N. II. С /54 – 159
8. А.Е.Кремын. Теоротические подходы к определению категории малое предпринимательства //экономика и едциум 20ISN_3 с 959-967.
9. В. Романенко. Сектор малого предпринимательство; особенности формирования взаимосвязей// Российского предпринимательство, 2010, N7, е. 11-16.
10. О.В.Шолох. Место и роль малого предпринимательства в социально-экономическом развитии региона / Вестник ПГУ, 2011 N25 с 36-39.
11. Г.А.Гайнуллина. Инфраструктура малого предпринимательства и анализ состояния перспективы развития в Омске. Вестник Омского Университета. Серия Экономика 2014 N-2.
12. Ə.Ş. İmanov. Kiçik sahibkarlıq, Bakı -2009, 368 s.

***Эльчин Фархад оглы Османов***
***Бакинский Университет Бизнеса, докторант***

## Некоторые теоретико-методологические вопросы развития малого и среднего предпринимательства

***Резюме***

**Цель исследования** – изучить исторические корни развития малого и среднего предпринимательства (МСП), изучить особенности МСП, определить необходимые условия для развития предпринимательства.

**Методика исследования** – методы сравнительного анализа, обобщения, синтеза.

**Прикладная значимость исследования** – МСП в настоящее время считается основной движущей силой становления и развития национальной экономики и формирования товарного рынка. С этой точки зрения важно создать благоприятные условия для развития МСП, реализовать меры по формированию конкурентной среды.

**Результаты исследования заключаются** в изучении теоретических вопросов развития МСП, их обобщении и подготовке предложений по применению опыта, сформированного в нашей стране.

**Оригинальность и научная новизна исследований** – в целях устойчивого развития МСП определены приоритеты учета реалий и конкурентного развития. В связи с этим оценивается мировой опыт и опыт нашей страны, изучаются конкретные аспекты проблемы, факторы развития.

***Ключевые слова: малое и среднее предпринимательство, национальная экономика, факторы развития, теоретические взгляды, конкурентоспособность.***

***Elchin Farhad Osmanov***
***Doctoral student***
***Baku Business University***

**Some theoretical and methodological issues of the development of small and medium entrepreneurship**

***Summary***

**The purpose of the research** is to examine the historical roots of the development of small and medium entrepreneurship (SMEs), to study the characteristic features of SMEs, to determine the necessary conditions for the development of entrepreneurship.

**The methodology of the research**- comparative analysis, generalization, synthesis methods were used.

**Application significance of the research** - SME is currently considered the main driving force in the formation and development of the national economy and the formation of the commodity market. From this point of view, it is important to create favorable conditions for the development of SME, to implement measures to shape the competitive environment.

**The results of the research** are to investigate the theoretical issues of SME development, summarize it, and prepare proposals for applying the experience formed in our country.

**Originality and scientific innovation of the research** - for the purpose of sustainable development of SME, priorities are determined for consideration of realities and competitive development. In this regard, the experience of the world and our country is evaluated, the specific aspects of the problem, development factors are studied.

***Key words: small and medium entrepreneurship, national economy, development factors, theoretical views, competitiveness.***